# 1994-CÜ İL TARİFLƏR VƏ TİCARƏT ÜZRƏ BAŞ SAZİŞİN XVII MADDƏSİNİN ŞƏRHİNƏ DAİR RAZILAŞMA

*Üzvlər,*

XVII Maddədə bu Maddənin 1-ci paraqrafında göstərilən, özəl ticarətçilər tərəfindən həyata keçirilən və idxal-ixraca təsir edən hökumət tədbirləri üçün GATT 1994-də qeyd olunan qeyri-diskriminativ rejimin ümumi prinsiplərinə uyğun olması tələb edilən dövlət ticarət müəssisələrinin fəaliyyətinə dair Üzvlərin öhdəliklərini nəzərdə tutulduğunu *qeyd edərək,*

Dövlət ticarət müəssisələrinə təsir göstərən hökumət tədbirlərinə münasibətdə Üzvlərin GATT 1994 üzrə cavabdehlik daşıdığını *daha sonra qeyd edərək,*

Hazırkı Razılaşmanın XVII Maddədə nəzərdə tutlmuş əsas təlimatlara zərər vurmadığını *qəbul edərək,*

Bununla aşağıdakılara dair *razılığa gəlirlər*:

1. Dövlət ticarət müəssisələrinin fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə, Üzvlər bü cür müəssisələr barədə Mallarla Ticarət üzrə Şuraya bildiriş verməlidirlər ki, 5-ci paraqrafın müddəalarına uyğun yaradılan işçi qrup tərəfindən belə müəssisələrə aşağıda qeyd olunan anlayış əsas götürülməklə baxış keçirsin:

"Müstəsna və ya xüsusi hüquq və imtiyazlar, o cümlədən qanuni və ya konstitusion səlahiyyətlər verilmiş və bu hüquqlarını həyata keçirərkən öz alış və ya satış əməliyyatları vasitəsilə idxal və ya ixracın səviyyəsinə, yaxud istiqamətinə təsir göstərən sənaye assosiasiyaları da daxil olmaqla, dövlət və qeyri-dövlət müəssisələri"

Bildiriş haqqında qeyd olunan tələb, yuxarıda müəyyən olunduğu kimi, yenidən satış və ya satış üçün malların istehsalı üçün deyil, hökumət və ya müəssisə tərəfindən istifadə edilən dərhal və ya son istehlak mallarının idxalına tətbiq olunmur.

2. Hər bir Üzv dövlət ticarət müəssisələri haqqında Mallarla Ticarət üzrə Şuraya bildiriş verilməsinə dair siyasətinin, hazırkı Razılaşmanın müddəalarını nəzərə almaqla baxışını keçirməlidir. Belə baxış keçirilərkən, hər bir Üzv, göstərilən müəssisələrin fəaliyyət xüsusiyyətlərinin və bunların fəaliyyətinin beynəlxalq ticarətə təsirinin dəqiq qiymətləndirilməsini təmin etmək məqsədilə öz

bildirişlərinin maksimum mümkün dərəcədə şəffaflığının təmin edilməsi zərurətini nəzərə almalıdır.

3. Bildirişlər, 24 may 1960-cı ildə qəbul edilmiş (BİSD 9S/184=185) dövlət ticarəti haqqında sorğuya uyğun olaraq həyata keçirilir, belə ki, Üzvlər 1-ci paraqrafda qeyd olunan müəssisələr haqqında, bunlar tərəfindən faktiki idxal və ya ixracın həyata keçirilib-keçirilmədiyindən asılı olmayaraq bildiriş verməlidirlər.

4. İstənilən Üzv, digər Üzv tərəfindən bildiriş üzrə öhdəliklərinin lazımi şəkildə yerinə yetirilmədiyinə dair əsasları olduğu təqdirdə, müvafiq Üzv qarşısında bu məsələni qaldıra bilər. Məsələnin qənaətbəxş şəkildə həll olunmadığı halda, bu Üzv 5-ci paraqrafa uyğun olaraq yaradılmış işçi qrup tərəfindən baxılması məqsədilə, eyni zamanda nəzərdə tutulan Üzvü məlumatlandıraraq, Mallarla Ticarət üzrə Şuraya qarşı bildiriş göndərə bilər.

5. İşçi qrup bildirişlərin və əks bildirişlərin baxılması üçün Mallarla Ticarət üzrə Şura adından yaradılmalıdır. Bu baxışların nəticələrini nəzərə almaqla və XVII maddənin 4 (c) paraqrafına xələl gətirmədən, Mallarla Ticarət üzrə Şura verilən bildirişlərin düzgünlüyü və əlavə məlumatın zəruriliyi haqqında tövsiyələr verə bilər. İşçi qrup, alınan bildirişlər nəzərə alınmaqla, eyni zamanda yuxarıda qeyd edilən dövlət ticarəti və 1-ci paraqrafa uyğun bildiriş verilməsi tələb olunan dövlət ticarət müəssisələrinin əhatə olunması nöqteyi-nəzərindən sorğunun düzgünlüyünü nəzərdən keçirməlidir. Bu qrup, həm hökumətlər və müəssisələr arasında münasibətlərə, və bu müəssisələr tərəfindən XVII Maddənin maraqları məqsədilə həyata keçirilən fəaliyyət növlərinə dair siyahı hazırlamalıdır. Bu halda belə başa düşülür ki, Katiblik işçi qrupa beynəlxalq ticarət ilə əlaqəli dövlət ticarət müəssisələrinin fəaliyyəti haqqında ümumi yardımçı sənəd təqdim edəcək. İşçi qrupda üzvlük bütün maraq göstərdiyi Üzvlər üçün açıq olmalıdır. Bu qrup öz iclasını ÜTT haqqında Sazişinin qüvvəyə minmə tarixindən sonra bir il ərzində və gələcəkdə ildə ən azı bir dəfə keçirməlidir. Qrup hər il Mallarla Ticarət üzrə Şuraya hesabatlar verəcəkdir.[1]

[1] Bu işçi qrupun fəaliyyəti 15 aprel 1994-cü il tarixdə qəbul edilmiş Bildiriş Prosedurları haqqında Nazirlər Qərarının III Hissəsində nəzərdə tutulan işçi qrupun fəaliyyəti ilə əlaqələndirilməlidir.